ədalət.- 2022.- 24 dekabr.- S.4.

# ŞƏKİDƏN TƏBRİKLƏR

**Əzizimiz, Zati-Aliləri, möhtərəm cənab Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Heydər oğlu Əliyev cənablarına.**

Sizi ürəkdən sevən, hər gün öz işi və əməlləri ilə vətənimizin çiçəklənməsi üçün çalışan, Sizə böyük sevgilərlə səcdə edən Şəkililər ad gününüz münasibəti ilə Sizi səmimi qəlblə təbrik edir. Sizə



**2 dekabr 2022-ci ildə Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və qızları Leyla Əliyevanın Şəki şəhər sakinləri ilə səmimi görüşündən**

bəyan etməyi özümüzə borc bilirik ki, hər bir qeyrətli azərbaycanlı Sizi çox sevir. Ona görə ki, 200 ildən artıq müddətdə şimaldan, cənubdan, qərbdən və şərqdən ərazilərimizi zəbt edən mənfur qonşularımızın əlindən torpaqlarımızı alıb bizə qaytarırsınız. Siz təkcə itirilmiş torpaqlarımızı deyil, eyni zamanda itirilmiş ləyaqətimizi, qeyrətimizi, namusumuzu və şərəfimizi bizə qaytarırsınız.

Siz öz zəkanızla yetişdirdiyiniz, ərsəyə gətirdiyiniz müzəffər ordunun cəsur Ali Baş Komandanı və ən böyük vətənpərvərsiniz! Siz Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan Milli Qəhrəman, Fateh İlham Əliyevsiniz! Siz bizim ömürlük Prezidentimizsiniz.

Biz Sizdən və ailənizdən, xüsusilə də birinci vitse prezident Mehriban xanım Əliyevadan həmişə diqqət və qayğı görmüşük. Biz Sizi çox sevirik!



**Prezident İlham Əliyev və jurnalist Çingiz Ənvəroğlu**

Fikrimizi tam ifadə etmək üçün Sizə layiq sözlər tamaqda çətinlik çəkdiyimizə görə, həmyerlimiz, böyük şair Vaqif Aslanın 44 günlük müharibə zamanı ilk qələbə xəbərləri gələndə Sizə həsr etdiyi "Ali Baş Komandanım" şeiri ilə Sizi təbrik edirik.

## *Ali Baş Komandanım!*

*Bu yerin, bu yerişin, bu duruşun mübarək!*
*Bu ləngərin, səngərin, bu vuruşun mübarək!*
*Ali Baş Komandanım!*

*Şəhid cənazəsindən könlü açılanları...*
*Ağzından zəhər damıb, əzvay saçılanları..*
*Əlsizi, ayaqsızı gəmirib yeyənləri...*
*Qarnı doyandan sonra mələyəm deyənləri...*
*Öz qınına qoy indi!*
*Gözünü qan örtənin gözlərini oy indi!*

*Xankəndini, Şuşanı göynəyən yarama bas!*
*Qalx İsa bulağının nəğməsinə qulaq as!*
*Yollarını gözləyən əllərimi salamla!*
*Çəmənimə sığal çək, çöllərimi salamla!*
*Çaylarıma qoşul, ax, göllərimi salamla!*
*Ali Baş Komandanım!*

*Bu işıqlı dünyaya illər boyu kor baxan...*
*İnsanlığa xor baxan iblisləri vur indi!*
*Xəbisləri, pisləri, ən pisləri vur indi!*
*Yollarını gözləyən dağın, daşın eşqinə!*
*Bu qaçılmaz, müqəddəs haqq savaşın eşqinə!*
*Mayası turşları vur, bətni şoranları vur!*
*İnsan sümüklərindən ilik soranları vur!*
*Ali Baş Komandanım!*

*Əmrinə müntəzirdir Azərbaycan ordusu,*
*Halal olsun deyirəm sənə bu torpaq, bu su!*
*Ananın südü kimi, atanın çörəyi tək!*
*Qarabağ üzərində dalğalanan bayrağın*
*Ana Azərbaycanın, ata Azərbaycanın döyünən ürəyi tək!*
*Ali Baş Komandanım!*

*Zəfərin də mübarək! Qələbən də mübarək!*
*Ad günün də mübarək,!*
*Ali Baş Komandanım!*

**Möhtərəm, cənab Prezidentimiz, Allah Sizi qorusun, Siz də bütün dünya azərbaycanlılarını. Siz dünya azərbaycanlılarının yenilməz, böyük atası, babasısınız! Sizi bir daha ad gününüz münasibəti ilə təbrik edirik! Ailəniz, Vətənimiz, xalqımız üçün bütün arzularınızın yerinə yetirilməsində Allah yardımınızda olsun! Biz Sizə daim dualar edirik. Sizin ailənizə və Sizin qoruduğunuz xalqımıza , millətimizə daim xoşbəxtlik arzulayırıq! Sizi var olasınız!**

**Böyük hörmət və ehtiramla**
**Çingiz Ənvəroğlu,**
**"Qızıl qələm" mükafatı laureatı**